**AZƏRBAYCAN RESPUBLİKASININ**

**SƏHİYYƏ NAZİRİ**

**Ə M R**

№ 95

**Bakı şəhəri** "02" noyabr 2010 il

**"Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin sertifikasiyasının təşkili haqqında"**

"Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 49-1-ci maddəsini və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 08.06.2010-cu il tarixli 108 nömrəli Qərarı ilə təsdiq edilmiş "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası Qaydası"nı rəhbər tutaraq praktik tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olan səhiyyə mütəxəssislərinin sertifikasiya prosesinin təşkili məqsədi ilə

**ƏMR EDİRƏM:**

1. Səhiyyə mütəxəssislərinin Sertifikasiyası Şurasının tərkibi və "Səhiyyə mütəxəssislərinin Sertifikasiyası Şurası haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).
2. Sertifikasiyası Şurasına tapşırılsın ki, iki həftə müddətində müsahibələrin keçirilməsi üzrə ixtisas komissiyalarını təşkil etsin.
3. Azərbaycan Respublikasında tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ olan şəxslərin dövlət reyestrinin aparılması qaydası təsdiq edilsin (əlavə olunur).
4. Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru C.Əsəd-zadəyə tapşırılsın ki, sertifikasiya işinin proqram təminatı və elektron məlumat bazası yaradılsın və davamlılığı təmin edilsin.

5. Kadrlar, elm və təhsil şöbəsinin müdiri K.Mehdiyevaya tapşırılsın ki, tibb mütəxəssislərinin sertifikasiya prosesinin aparılması ilə bağlı təşkilatı məsələlər həll edilsin.

6. Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri A.Vəliyevə tapşırılsın ki, bu əmrdən irəli gələn maliyyə məsələlərin həlli üçün müvafiq tədbirlər görülsün.

7. Əmrin icrasına nəzarət Nazir müavinlərinə həvalə edilsin.

**Oqtay Şirəliyev**

*Azərbaycan Respublikası*
*Səhiyyə Nazirliyinin*
*"02" noyabr 2010-cu il tarixli*
*95 nömrəli əmri ilə təsdiq edilmişdir*

**Səhiyyə mütəxəssislərinin Sertifikasiyası Şurasının**
**TƏRKİBİ**

| | |
|---|---|
| 1. Zəkiyyə Mustafayeva | Səhiyyə Nazirliyinin aparat rəhbəri |
| 2. Kəmalə Mehdiyeva | Səhiyyə Nazirliyi Kadrlar, elm və təhsil şöbəsinin müdiri |
| 3. Soltan Əliyev | Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin müdiri |
| 4. Emin Əfəndiyev | Azərbaycan Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri |
| 5. Leyla Rzaguliyeva | Ə.Əliyev ad. Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Mamalıq və ginekologiya kafedrasının dosenti |
| 6. Yaqub Qurbanov | Azərbaycan Tibb Universitetinin Daxili xəstəliklər propedevtikası kafedrasının müdiri |
| 7. Nəsib Quliyev | K.Fərəcova ad. Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru |
| 8. Surxay Hadıyev | Azərbaycan Tibb Universitetinin II Cərrahi xəstəliklər kafedrasının professoru |
| 9. Kamran Aslanov | "Respublika Stomatoloji Tibbi Mərkəzi" ASC-nin idarə heyətinin sədri |
| 10. Namiq Mirzəzadə | Dərman Vasitələrinin Analitik Ekspertiza Mərkəzinin Tibbi texnika şöbəsinin müdiri |
| 11. Soltan Məmmədov | HİV/AİDS, Vərəm və Malyariya ilə mübarizə üzrə Ölkə Əlaqələndirmə Komissiyasının sədr müavini |

*Azərbaycan Respublikası*
*Səhiyyə Nazirliyinin*
*02 noyabr 2010-cu il tarixli*
*95 nömrəli əmri ilə təsdiq edilmişdir*

# Səhiyyə mütəxəssislərinin Sertifikasiyası Şurası haqqında ƏSASNAMƏ

## 1. Ümumi müddəalar

1.1. Səhiyyə mütəxəssislərinin Sertifikasiyası Şurası (bundan sonra Sertifikasiya Şurası) Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi (bundan sonra Nazirlik) tərəfindən səhiyyə mütəxəssislərinin sertifikasiyası prosesini təşkil etmək məqsədilə yaradılır.

1.2. Sertifikasiya Şurası öz fəaliyyətini qanunçuluq, şəffaflıq, kollegiallıq, qərəzsizlik prinsipləri əsasında qurur. Şura öz fəaliyyətində müstəqildir və vəzifələrini yerinə yetirərkən dövlət və yerli özünüidarə orqanları, yerli, xarici və beynəlxalq qeyri-hökumət təşkilatları ilə tərəfdaşlıq əsasında qarşılıqlı fəaliyyət göstərir.

## 2. Sertifikasiya Şurasının vəzifələri

2.1. Sertifikasiya Şurası:

2.1.1. səhiyyə mütəxəssislərinin sertifikasiyası prosesini təşkil edir və onun həyata keçirilməsini koordinasiya edir;

2.1.2. təsdiq olunmuş qərarların icrasına nəzarət edir;

2.1.3. səhiyyə mütəxəssislərinin sertifikasiyası üçün test və müsahibələrin qrafikini müəyyən edir və təsdiq üçün Nazirliyə təqdim edir;

2.1.4. test imtahanlarının suallar toplusunu təsdiq edir;

2.1.5. test imtahanının suallar toplusuna dair düzgün cavabların konfidensial siyahısını təsdiq edir;

2.1.6. müsahibələrin keçirilməsi üzrə ixtisas komissiyalarını təşkil edir, onların fəaliyyətinin əsaslarını və iş qaydasını müəyyən edir;

2.1.7. test və müsahibədən uğurla keçmiş səhiyyə mütəxəssislərin siyahısını şəhadətnamə verilməsi üçün Nazirliyə təqdim edir;

2.1.8. sertifikasiya prosesi, test və müsahibənin nəticələri ilə bağlı ərizə və şikayətlərə baxır;

2.1.9. səhiyyə mütəxəssislərinin sertifikasiya prosesinin nəticələri üzrə təhlillər aparır, sertifikasiya prosesinin təkmilləşdirilməsinə dair təkliflər hazırlayır;

2.1.10. öz iş qaydasını təsdiq edir;

2.1.11. Sertifikasiya Şurasının üzvünün səlahiyyətinə vaxtından əvvəl xitam verilməsi üçün Nazirliyə təqdimat verir;

2.1.12. sertifikasiya prosesi ilə bağlı ictimai müzakirələr, seminarlar, məşğələlər və digər tədbirlər təşkil edir;

2.1.13. sertifikasiya prosesi barədə ictimaiyyətin məlumatlandırılması məqsədilə qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələri ilə əməkdaşlıq edir.

## 3. Sertifikasiya Şurasının fəaliyyətinin təşkili

3.1. Sertifikasiya Şurasının tərkibi Azərbaycan Respublikasının səhiyyə naziri tərəfindən təsdiq edilir.

3.2. Sertifikasiya Şurasının üzvünün səlahiyyət müddəti beş ildir.

3.3. Sertifikasiya Şurası iclaslarında baxılan məsələlər üzrə sadə səs çoxluğu ilə qərarlar qəbul edir;

3.4. Sertifikasiya Şurasının qərarları Nazirlik tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.

3.5. Sertifikasiya Şurasının sədri, sədr müavini və katibi Sertifikasiya Şurasının birinci iclasında sadə səs çoxluğu ilə seçilir;

3.6. Sertifikasiya Şurasının sədri:

3.6.1. Sertifikasiya Şurasının işini təşkil edir və ona rəhbərliyi həyata keçirir;

3.6.2. Sertifikasiya Şurasını təmsil edir;

3.6.3. Sertifikasiya Şurasının iclaslarının gündəliyini müəyyənləşdirir və keçirilən iclaslarda sədrlik edir;

3.6.4. Sertifikasiya Şurasının səlahiyyətlərinə aid məsələləri baxılmaq üçün şuranın iclaslarına çıxarır.

3.7. Sertifikasiya Şurasının katibi:

3.7.1. Sertifikasiya Şurasının iclaslarının hazırlanmasına dair təşkilati işləri həyata keçirir;

3.7.2. Sertifikasiya Şurasının iclas protokolunu aparır;

3.7.3. Sertifikasiya Şurasının səlahiyyətləri ilə bağlı digər məsələləri həll edir.

3.8. Sertifikasiya Şurasının üzvləri aşağıdakı hüquqlara malikdir:

3.8.1. Sertifikasiya Şurasının səlahiyyətlərinə aid məsələlərin həllində iştirak etmək;

3.8.2. Sertifikasiya Şurasının iclasına təqdim edilmiş bütün materiallarla əvvəlcədən tanış olmaq;

3.8.3. Sertifikasiya Şurasının qəbul ediləcək qərarlarına dair fikir söyləmək;

3.8.4. Sertifikasiya Şurasının səlahiyyətlərinə aid məsələlərə Sertifikasiya Şurasının iclasında baxılması üçün təkliflər vermək;

3.8.5. Sertifikasiya Şurasının qərarları, protokolları və digər sənədləri ilə tanış olmaq.

3.9. Sertifikasiya Şurasının üzvləri ictimai əsaslarla fəaliyyət göstərirlər.

3.10. Sertifikasiya Şurasının hər bir üzvü Sertifikasiya Şurasının iclasında baxılan məsələlər üzrə şəxsi maraqlarına toxunan, habelə onun qərəzliliyinə əsas verə bilən hallar olduqda, şuranı məlumatlandırmalı və qərarların qəbul edilməsində iştirak etməməlidir.

3.11. Sertifikasiya Şurasının üzvünün səlahiyyətlərinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

3.11.1. öz arzusu ilə Sertifikasiya Şurası üzvlüyündən çıxmaq barədə yazılı ərizə verdikdə;

3.11.2. səhhətinə görə vəzifələrini altı aydan artıq yerinə yetirə bilmədikdə;

3.11.3. üzrsüz səbəbdən Sertifikasiya Şurasının iclaslarında dəfələrlə iştirak etmədikdə;

3.11.4. qanunla müəyyən olunmuş qaydada fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edildikdə;

3.11.5. barəsində cinayət işinə bəraətverici əsaslar olmadan xitam verildikdə, cinayət törətməyi qanuni qüvvəyə minmiş məhkəmə hökmü ilə təsdiq olunduqda və ya tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda.

## 4. Yekun müddəalar

Sertifikasiya Şurasının fəaliyyəti ilə bağlı ortaya çıxan mübahisəli məsələlərə Nazirlik tərəfindən qanunvericiliyə uyğun olaraq baxılır.

*Azərbaycan Respublikası*
*Səhiyyə Nazirliyinin*
*"02"noyabr 2010-cu il tarixli*
*95 nömrəli əmri ilə təsdiq edilmişdir*

**Azərbaycan Respublikasında tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ olan şəxslərin dövlət reyestrinin aparılması**
**QAYDASI**

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 08.06.2010-cu il tarixli 108 nömrəli Qərarı ilə təsdiq edilmiş "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası Qaydası"nı rəhbər tutaraq Azərbaycan Respublikasında tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ olan şəxslərin dövlət reyestrinin (bundan sonra - Dövlət Reyestri) aparılması prosesini tənzimləyir.

1.2. Dövlət Reyestri Azərbaycan Respublikasında tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ olan şəxslər haqqında məlumat toplusudur.

1.3. Dövlət Reyestri elektron və kağızda çap olunmuş şəkildə saxlanılır.

1.4. Dövlət Reyestrinə daxil edilmiş məlumatların toplanılması, işlənilməsi və mühafizəsi ilə bağlı məsələlər "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununun və digər normativ hüquqi aktların tələblərinə uyğun olaraq tənzimlənir.

1.5. Dövlət Reyestrinin aparılmasına Səhiyyə Nazirliyinin Kadrlar, elm və təhsil şöbəsi məsuldur. Dövlət Reyestrinin proqram təminatının və elektron məlumat bazasının davamlılığını Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi təmin edir.

**2. Dövlət Reyestrinin strukturu**

2.1. Dövlət Reyestri bu Qaydaya əlavədə göstərilən formaya uyğun tərtib edilir.

2.2. Dövlət Reyestrinə daxil edilən məlumatlar aşağıda göstərilən hissələrdən ibarətdir:
- şəxsi məlumat;
- iş fəaliyyəti;
- təhsil;
- internatura/rezidentura;

- internatura/rezidentura;
- aspirantura;
- ordinatura;
- doktorluq;
- ixtisasartırma kursları;
- fəxri ad(lar);
- xarici dillər;
- sertifikasiya olunma tarixi;
- növbəti sertifikasiyanın tarixi;
- Dövlət Reyestrinə daxil edilmə tarixi.

2.3. Dövlət Reyestrinin "Şəxsi məlumat" hissəsində şəxs haqqında növbəti məlumatlar göstərilir:

- fərdi reyestr nömrəsi (avtomatik verilir);
- adı;
- soyadı;
- atasının adı;
- doğum tarixi (gün/ay/il);
- cinsi;
- ailə vəziyyəti;
- yaşayış ünvanı;
- vətəndaşlıq;
- şəxsiyyət vəsiqəsinin nömrəsi;
- şəxsiyyət vəsiqəsinin verilmə tarixi;
- əlaqə telefonu;
- elektron poçt ünvanı.

2.4. Dövlət Reyestrinin "Iş fəaliyyəti" hissəsində şəxs haqqında növbəti məlumat göstərilir:

- işlədiyi şəhər/rayon;
- işlədiyi müəssisə;
- işə qəbul olunma tarixi;
- işlədiyi ixtisas;
- dəyişmiş ixtisas;
- ixtisas dərəcəsi;
- vəzifəsi;
- ştat vahidi;
- ümumi həkimlik stajı;
- hazırkı ixtisası üzrə əmək stajı;

- elmi vəzifəsi;
- elmi dərəcəsi;
- hərbi rütbə.

2.5. Dövlət Reyestrinin "Təhsil" hissəsində şəxs haqqında növbəti məlumat göstərilir:
- təhsil aldığı ölkə;
- təhsil müəssisənin adı;
- təhsil müəssisəni bitirdiyi il;
- oxuduğu fakültə;
- aldığı ixtisas;
- diplomun seriya nömrəsi;
- diplomun verilmə tarixi;

2.6. Dövlət Reyestrinin "İnternatura/Rezidentura" hissəsində şəxs haqqında növbəti məlumat göstərilir:
- rezidentura/internaturanı keçdiyi ölkə;
- rezidentura/internaturanı bitirdiyi il;
- aldığı ixtisas

2.7. Dövlət Reyestrinin "Ordinatura" hissəsində Dövlət Reyestrinə daxil edilən şəxs haqqında növbəti məlumat göstərilir:
- ordinaturanı keçdiyi ölkə;
- ordinaturanı keçdiyi müəssisənin adi;
- ordinaturani bitirdiyi il;
- aldığı ixtisas

2.8. Dövlət Reyestrinin "Ixtisasartırma kursları" hissəsində Dövlət Reyestrinə daxil edilən şəxs haqqında növbəti məlumat göstərilir:
- ixtisasartırma kurslarını keçdiyi ölkə;
- ixtisasartırma kurslarını keçdiyi müəssisənin adı
- ixtisasartırma kurslarının hansi ixtisas üzrə keçməsi
- ixtisasartırma kurslarını keçdiyi il;
- ixtisasartırma kurslarının müddəti (həftə);

2.9. Dövlət Reyestrinin "Aspirantura" hissəsində Dövlət Reyestrinə daxil edilən şəxs haqqında növbəti məlumat göstərilir:
- aspiranturada oxuduğu ölkə;
- aspiranturada oxuduğu muəssisənin adı;
- aspiranturanı bitirdiyi il;
- ixtisas şifri

2.10. Dövlət Reyestrinin "Doktorluq" hissəsində Dövlət Reyestrinə daxil edilən şəxs haqqında növbəti məlumat göstərilir:

- doktorluğu bitirdiyi ölkə;
- doktorluğu bitirdiyi muəssisənin adı;
- doktorluğu bitirdiyi il;
- ixtisas şifri

2.11. Dövlət Reyestrinin "Fəxri ad(lar)" hissəsində Dövlət Reyestrinə daxil edilən şəxsin təltif edildiyi fəxri ad(lar) haqqında məlumat göstərilir.

2.12. Dövlət Reyestrinin "Xarici dillər" hissəsində Dövlət Reyestrinə daxil edilən şəxsin bildiyi xarici dillər haqqında məlumat göstərilir.

2.13. Dövlət Reyestrinin "Sertifikasiya" hissəsində

- sertifikasiya olunma tarixi
- sertifikasiya şəhadətnaməsinin nömrəsi
- növbəti sertifikasiyanın tarixi

2.14. Dövlət Reyestrinin "Dövlət Reyestrinə daxil edilmə tarixi" hissəsində məlumatın Dövlət Reyestrinə daxil edilmə tarixi (gün/ay/il) göstərilir.

## 3. Dövlət Reyestrinin aparılması

3.1. Dövlət Reyestri elektron şəkildə aparılır.

3.2. Azərbaycan Respublikasında tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ olan şəxs haqqında məlumat Dövlət reyestrinə bir ay ərzində Kadrlar, elm və təhsil şöbəsi tərəfindən daxil edilir.

3.3. Dövlət Reyestrə daxil edilmiş şəxslərə çıxarış verilir.

3.4. Azərbaycan Respublikasında tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ olan hər bir şəxsə heç bir halda dəyişilməyən fərdi reyestr nömrəsi verilir.

3.5. Azərbaycan Respublikasında tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ olan şəxsə verilmiş fərdi reyestr nömrəsinin onun şəxsi işinin üz vərəğində, yuxarı sol küncdə yazılır.

3.6. Tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququnu itirmiş, habelə vəfat etmiş şəxs haqqında məlumat bir ay müddətində Kadrlar, elm və təhsil şöbəsi tərəfindən Dövlət Reyestrindən çıxarılır.

3.7. Dövlət Reyestrinin aparılmasına məsul şəxslər məxfi məlumatın yaymasına görə mövcud qanunvericiliyə müvafiq olaraq məsuliyyətə cəlb edilə bilərlər.

3.8. İldə bir dəfədən az olmayaraq Səhiyyə Nazirliyinin Kadrlar, elm və təhsil şöbəsi Dövlət Reyestrini təftiş edir. Təftişin nəticələri aktlaşdırılır.

## 4. Yekun müddəalar

Dövlət Reyestrinin aparılması ilə bağlı ortaya çıxan mübahisəli məsələlərə Nazirlik tərəfindən qanunvericiliyə uyğun olaraq baxılır.

*Azərbaycan Respublikasında*
*tibb və əczaçılıq*
*fəaliyyəti ilə məşğul olmaq hüququ olan*
*şəxslərin dövlət reyestrinin*
*aparılması Qaydasına Əlavə*

# AZƏRBAYCAN RESPUBLİKASINDA TİBB VƏ ƏCZAÇILIQ FƏALİYYƏTİ İLƏ MƏŞĞUL OLMAQ HÜQUQU OLAN ŞƏXSLƏRİN DÖVLƏT REYESTRİNİN TƏRTİB EDİLMƏSİ FORMASI

| ŞƏXSİ MƏLUMAT | |
|---|---|
| Fərdi reyestr nömrəsi | |
| Adı | |
| Soyadı | |
| Atasının adı | |
| Doğum tarixi (gün/ay/il) | |
| Cinsi | |
| Ailə vəziyyəti | |
| Vətəndaşlıq | |
| Ev ünvanı | |
| Şəxsiyyət vəsiqəsinin nömrəsi | |
| Şəxsiyyət vəsiqəsinin verilmə tarixi | |
| Telefon (ev, mobil) | |
| E-mail | |

| İŞ FƏALİYYƏTİ | |
|---|---|
| İşlədiyi şəhər/rayon | |
| İşlədiyi müəssisə | |
| İşə qəbul olunma tarixi | |
| İşlədiyi ixtisası | |
| Dəyişmiş ixtisası | |
| İxtisas dərəcəsi | |
| Vəzifəsi | |
| Ştat vahidi | |
| Həkimlik stajı | |
| Hazırkı ixtisası üzrə stajı | |
| Elmi vəzifəsi | |
| Elmi dərəcəsi | |
| Hərbi rütbə | |

| TƏHSİL | |
|---|---|
| Ölkə | |
| Müəssisənin adı | |
| Bitirdiyi il | |
| Fakültə | |
| İxtisası | |
| Diplomun seriya və nömrəsi | |
| Diplomun verilmə tarixi | |

| İnternatura/Rezidentura | |
|---|---|
| Ölkə | |
| Bitirdiyi il | |
| İxtisası | |

| Aspirantura | |
|---|---|
| Ölkə | |
| Müəssisənin adı | |
| Bitirdiyi il | |
| İxtisas şifri | |

| ORDİNATURA | |
|---|---|
| Ölkə | |
| Müəssisənin adı | |
| Bitirdiyi il | |
| İxtisas | |

| DOKTORLUQ | |
|---|---|
| Ölkə | |
| Müəssisənin adı | |
| Bitirdiyi il | |
| İxtisas şifri | |

| İXTİSASARTIRMA KURSLARI | |
|---|---|
| Ölkə | |
| Müəssisənin adı | |
| İxtisas | |
| Kurs keçdiyi il | |
| Müddəti (həftə) | |
| Mövzusu | |

| FƏXRİ AD(LAR) |
|---|
| |
| |
| |
| |

| XARİCİ DİLLƏR |
|---|
| |

| SERTİFİKASİYA OLUNMA TARİXİ |
|---|
| |

| NÖVBƏTİ SERTİFİKASİYANIN TARİXİ |
|---|
| |

| SERTİFİKASİYA ŞƏHADƏTNAMƏSİNİN NÖMRƏSİ |
|---|
| |

| DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLMƏ TARİXİ |
|---|
| |